410:1.QXD 11.02.2018 17:29 Page 1


# KÜRD DÎPLOMAT

xalqı mübariz və qəhrəman xalqdır
Heydər Əliyev

№ 05 (410) 12 - 18 Fevral, Şûbat sal 2018
Ji meha şûbatê sala 2003-a tê weşandin
*Həftəlik İctimai-siyasi qəzet*
Rojnama heftename civakî û sîyasî
Qiymәti: Hêjaye: 40 qəpik


Bilirsən, nə etmiş kürdlər bir zaman?
Qurtarmış İslamı çox ağır dardan!

Qədim Avropanın xaçpərəstləri,
Yüz illər sındırmış göy məscidləri.

Müsəlman keçmişin öyrənsə əgər,
Kürdün dərgahına daim baş əyər.

Səbahəddin Eloğlu




Səh. 2

Futbol üzrə dünya çempionatının Kubokunun əsli İlham Əliyevə təqdim edilib



Səh. 11

Washington Times: Nêçîrvan Barzanî hêjayî xelata Nobel a Aştiyê ye



Səh. 12

Amerîka: Em piştevaniyê dikin li Herêma Kurdistanê wek qewareyeke destûrî



Səh. 13

Davos û dîplomasiya hikûmeta Kurdistanê...



Səh. 13

Davos û dîplomasiya hikûmeta Kurdistanê...



Səh. 4

Türkiyədəki HDP partiyasında yeni isim



Səh. 13

Salih Mislim: Wê Amerîka bergiriyê li Minbic bike

## Kürdlər və Kürdüstan Səh. 6

## Serokwezîr: Piştî şêwra ligel partiyên siyasî, emê dema hilbijartinan diyar bikin Səh. 9

## Paris'te coşku zirvede Səh. 7

## Saziyên Kurdistanî û Mezopotamyayî name ji NY re şandin Səh. 12

## Nêçîrvan Barzanî û Balyozê Amerîka çareserkirina pirsgirêkan gotûbêj kirin Səh. 11

## ООН призывает к немедленному прекращению огня в Сирии Səh. 14



Səh. 5

Belə qardaşlıqmı olur, Türkiyə?!



Səh. 8

Wezîra almanî serdana Kurdistanê dike



Səh. 8

Netanyahu: İsrail, her saldırıya karşı kendini savunacaktır



Səh. 7

Trump, Abadi ile görüşmesini anlattı: En büyük hırsız ile görüştüm

410:1.QXD 11.02.2018 17:29 Page 2



# Futbol üzrə dünya çempionatının Kubokunun əsli İlham Əliyevə təqdim edilib




Futbol üzrə dünya çempionatı ərəfəsində dünya turnesi çərçivəsində çempionatın Kubokunun əsli FIFA-Coca-Cola və AFFA tərəfindən Azərbaycana gətirilib.

Kubok Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təqdim olunub. Kubok futbol üzrə dünya çempionatı Kubokunun sahibi, Fransa yığma komandasının keçmiş oyunçusu, dünya futbol əfsanələrindən sayılan Kristian Karambo tərəfindən təqdim edilib.

Görüşdə çıxış edən Kristian KARAMBO deyib: “Azərbaycanda olmaq mənim üçün həqiqətən də şərəfdir. Sizin gözəl şəhəriniz var. Sizin həmişə idmana dəstək verdiyinizi bilirəm və buna görə Sizə minnətdarıq. Bizi qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür edirik. Cənab Prezident, bu Kubok Sizə təqdim olunur, siz buna layiqsiniz”.

Əfsanəvi futbolçu Kristian Karambo dünya çempionatının Kubokunun əslini Prezident İlham Əliyevə təqdim etdi.

Azərbaycan Prezidenti İlham ƏLİYEV dedi:

-Çox sağ olun. Mən FIFA-ya, şəxsən sizə, sizin həmkarlarınıza bu tarixi Kuboku Azərbaycan xalqına, azərbaycanlı azarkeşlərə təqdim etmək məqsədilə Bakıya gəlişiniz üçün minnətdaram. Biz Azərbaycanın və Bakının turnenin keçirildiyi ölkə və şəhərlərdən biri kimi seçilməsindən qürur duyuruq. Bu, bizim üçün həqiqətən də böyük şərəfdir. Bu gün bu, böyük bir hadisə olacaq və mən əminəm ki, azarkeşlər bu Kuboka baxmaqdan çox məmnun olacaqlar. Mən sizin icazənizlə bu kuboka toxundum. Mən bilirəm ki, Kuboka yalnız çempionlar və dövlət başçıları toxuna bilərlər. Əminəm ki, tariximizdə ilk dəfə qeyd etdiyimiz bu əlamətdar hadisə futbolumuzda, oyunçularımızda daha da böyük həvəs oyadacaq, dünyada bu ən məşhur idman növünün Azərbaycanda inkişafına kömək edəcək. Biz futbolun, idmanın inkişafına kömək etməyə çalışırıq. Azərbaycanın idman sahəsində yaxşı nəticələri var. Keçmiş Rio Olimpiya Oyunlarında Azərbaycan yığması ümumi medal sayına görə dünyada 14-cü yeri tutmuşdur. Biz iki mötəbər beynəlxalq idman yarışına - Avropa Oyunlarına və İslam Həmrəyliyi Oyunlarına ev sahibliyi etmişik və bu oyunlarda komandamız medal sayına görə müvafiq olaraq ikinci və birinci yerləri tutmuşdur. Biz Bakıda futbol üzrə Avroliqanın finalına və futbol üzrə Avropa çempionatının dörddəbir finalına və bir neçə qrup oyunlarına ev sahibliyi etməyi səbirsizliklə gözləyirik. Biz artıq mötəbər beynəlxalq, Avropa idman və futbol yarışlarına ev sahibliyi edəcək dünya ölkələrinin birinə çevrilirik. Əlbəttə ki, bunu biz dostluq və FIFA-ya hörmət əlaməti hesab edirik. Sizdən bizim qonağımız olmuş FIFA-nın prezidenti cənab İnfantinoya salamlarımı çatdırmağı xahiş edirəm. Biz hamımız bu tarixi günü xatırlayacağıq.

* * *

Sonra FIFA prezidenti Canni İnfantinonun ənənəsinə uyğun olaraq FIFA-nın rəsmi nümayəndəsi xatirə hədiyyəsini Prezident İlham Əliyevə təqdim etdi.

AFFA-nın baş katibi Elxan Məmmədov Prezident İlham Əliyevə məlumat verdi ki, futbol üzrə dünya çempionatının Kuboku xüsusi təyyarədə yeniyetmə azərbaycanlı futbolçuların müşayiəti ilə Bakıya gətirilib. Hətta uşaqlar təyyarədə Kristian Karambo ilə topla oynayıblar. Dünya çempionatının kuboku yerli azarkeşlərin görməsi üçün “Gənclik Mall”da nümayiş etdirilir. Sonda xatirə şəkilləri çəkdirildi.

***president.az***

# Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallager Roma Papası I Fransisk və dövlət katibi, kardinal Pietro Parolinin salamlarını Prezident İlham Əliyevə çatdırdı. Azərbaycana ilk dəfədir ki, səfər etdiyini deyən arxiyepiskop Paul Riçard Gallager göstərilən yüksək qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Azərbaycan haqqında çox məlumatlı olduğunu qeyd edən qonaq ölkəmizə səfərindən məmnunluğunu ifadə etdi, buradakı inkişafı öz gözləri ilə görməyin maraqlı olduğunu vurğuladı. Roma Papası I Fransiskin fərmanı ilə Azərbaycan Katolik Kilsəsinin ordinarisi Vladimir Feketenin yepiskop rütbəsinə yüksəldilməsinin çox sevindirici hadisə olduğunu deyən arxiyepiskop Paul Riçard Gallager bunun Müqəddəs Atanın ölkəmizdəki katolik icmasına və Azərbaycan ilə əlaqələrə verdiyi önəmin mühüm göstəricisi olduğunu bildirdi.

Roma Papası I Fransiskin iki il əvvəl Azərbaycana səfərinin tarixi hadisə olduğunu qeyd edən Prezident İlham Əliyev səfərlə bağlı xoş xatirələrinin olduğunu bildirdi. Dövlətimizin başçısı, həmçinin özünün Vatikana rəsmi səfərini məmnunluqla xatırlayaraq Roma Papası I Fransisk, o cümlədən dövlət katibi, kardinal Pietro Parolin ilə keçirdikləri görüşlərin əhəmiyyətini vurğuladı, bu cür yüksək səviyyəli qarşılıqlı səfərlərin Azərbaycan ilə Vatikan arasında sıx əlaqələrin göstəricisi olduğunu qeyd etdi. Prezident İlham Əliyev Müqəddəs Taxt-Tacın xarici dövlətlərlə əlaqələr üzrə katibi arxiyepiskop Paul Riçard Gallagerin Azərbaycana səfərinin səmərəli keçəcəyinə ümidvar olduğunu bildirdi, səfərin iki dövlət arasında mövcud tərəfdaşlıq əlaqələrini möhkəmləndirəcəyinə əminliyini ifadə etdi. Söhbət zamanı Azərbaycanın nümunəvi multikultural və tolerant bir ölkə kimi dinlərarası və mədəniyyətlərarası dialoqa böyük töhfə verdiyi qeyd edildi. Prezident İlham Əliyev Roma Papası I Fransisk və dövlət katibi kardinal Pietro Parolinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Roma Papası I Fransiskə və dövlət katibinə çatdırmağı xahiş etdi.



# Prezident İlham Əliyev “Thales International” şirkətinin birinci vitse-prezidentinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın “Thales International” şirkətinin birinci vitse-prezidenti Rafael Eskinazini qəbul edib.

“Thales International” şirkətinin birinci vitse-prezidenti Rafael Eskinazi təmsil etdiyi təşkilatın AZAL ilə uzun illər səmərəli əməkdaşlıq etdiyini vurğuladı və Azərbaycanla bu əməkdaşlığı gələcəkdə də davamlı həyata keçirmək niyyətində olduqlarını qeyd etdi. Rafael Eskinazi “Thales International” şirkətinin dünyada ilk pilot layihəsi olan Heydər Əliyev Beynəlxalq Aeroportunda Azərbaycanın hava məkanından istifadə, strategiya və inkişaf üzrə səmərəlilik mərkəzinin açılış mərasiminin bu gün keçirildiyini məmnunluqla vurğuladı.

Dövlətimizin başçısı “Thales International” şirkətinin Azərbaycanla əməkdaşlığından məmnunluğunu ifadə edərək şirkətin bu günədək ölkəmizdə həyata keçirdiyi layihələrin önəmini qeyd etdi və bundan sonra da uğurlu əməkdaşlıq aparılacağına ümidvar olduğunu bildirdi. Söhbət zamanı AZAL ilə “Thales International” arasında bu şirkətin məhsullarının istehsalı ilə bağlı Azərbaycanda birgə müəssisənin yaradılması ətrafında fikir mübadiləsi aparıldı.

410:1.QXD 11.02.2018 17:29 Page 3



# Sumqayıtda 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib

Fevralın 5-də Sumqayıtda 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib. Hesabat yığıncağında Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov , Prezident Administrasiyasının məsul işçisi Vəfadar Bağırov, millət vəkilləri, idarə, müəssisə və təşkilat rəhbərləri, eləcə də şəhər ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə ötən ilin sosial-iqtisadi inkişafını, abadlıq-quruculuq işlərini əks etdirən film nümayiş olunub.



Hesabat yığıncağında Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcovun ötən ilin yekunlarına dair hesabat məruzəsi dinlənilib. Diqqətə çatdırılıb ki, Azərbaycan Prezidenti İlham Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının həyata keçirilməsi nəticəsində 2017-ci il Sumqayıt üçün də uğurlu olub. 2016-cı illə müqayisədə 2017-ci ildə ümumdaxili məhsulun həcmi 30,2 faiz artaraq 1 milyard 533 milyon manatdan çox olmuşdur. Onun bir nəfərə düşən həcmi 4489 manat təşkil etmişdir ki, bu da 2016-cı ilə nisbətən 32,4 faiz çoxdur.

Ötən illə müqayisədə sənaye müəssisələrində məhsul istehsalı 34,0 faiz artaraq 1 milyard 81 milyon manat təşkil etmişdir. Ümumdaxili məhsulun tərkibində qeyri-dövlət sektorunun payı 85,0 faizdən çox olmuşdur.

Vurğulanıb ki, əsas kapitala investisiya qoyuluşu tikinti-quruculuq işlərinin genişlən¬diril¬məsinə, şəhərin tarazlı inkişafına mühüm təsir göstərir. Bütün maliyyə mənbələri hesabına ayrı-ayrı sahələrin inkişafına 410 milyon manat vəsait yönəldilmiş, artım tempi 16,8 faiz təşkil etmişdir. Kapital qoyuluşunun 73,4 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə yönəldilmişdir. 2017-ci ildə tikinti-quraşdırma işlərinin həcmi 12,0 faiz artmışdır.

Şəhər ərazisində fəaliyyət göstərən ticarət və iaşə obyektləri üzrə pəra¬kəndə əmtəə dövriyyəsinin həcmi 933 milyon manat olmuş, əvvəlki ilə nisbətən 31,0 faiz artmışdır.

İqtisadiyyatın başqa sahələrində olduğu kimi əhalinin həyat səviyyəsini xarakterizə edən əsas göstəricilərdən biri olan pullu xidmətin həcmi xeyli çoxalmışdır. Əhali 274 milyon manatlıq pullu xidmətdən istifadə etmiş, ötən illə müqayisədə 34,7 faiz artım əldə olunmuşdur.

Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən uğurlu sosial-iqtisadi siyasət nəticəsində 2017-ci ildə Sumqayıt şəhərində qarşıya qoyulmuş tapşırıqlar uğurla yerinə yetirilmiş, il ictimai-siyasi hadisələrlə zəngin olmuşdur. Xüsusilə dekabr ayının 15-də ölkə Prezidenti cənab İlham Əliyevin Sumqayıt şəhərinə səfəri və səfər çərçivəsində şəhərin sosial-iqtisadi və mədəni inkişafında böyük əhəmiyyəti olan Bayraq Muzeyi və “Yeni Azərbaycan Partiyası”nın Sumqayıt şəhər təşkilatı üçün tikilmiş yeni inzibati binalar, “Kimya Sənaye Parkında” dörd yeni istehsal sahəsinin açılışı və üç müəssisənin təməlinin qoyulması, “Kimyaçı” Mədəniyyət Sarayında, Səməd Vurğun və Koroğlu küçələrində, Lüdviqshafen parkında və “Azərboru” ASC-nin Boruyayma istehsalat sahəsində aparılan yenidənqurma və əsaslı təmir işləri ilə tanışlığı, şəhər ictimaiyyəti ilə keçirilən səmimi görüşü, şəhərin sosial-iqtisadi, mədəni inkişafında xidmətləri olan 40 nəfərin fəxri adlarla, diplom, orden və medallarla təltif edilməsi haqqında imzaladığı sərəncam hər bir sumqayıtlının xatirəsində silinməz iz qoymuşdur. Bu səfər bir daha təsdiqlədi ki, Prezident cənab İlham Əliyev ulu öndər Heydər Əliyevin ənənəsinə sadiq qalaraq şəhərimizin sosial-iqtisadi inkişafını, əhalinin qayğılarının həllini daim diqqət mərkəzində saxlayır.

Bu diqqət və qayğının bariz nümunəsi olaraq son dövrlərdə Sumqayıt şəhərində istismar müddətini ötmüş qəzalı vəziyyətdə olan 305 liftin və 500 yaşayış binasının dam örtüyünün dəyişdirilməsi, şəhərdə abadlıq-quruculuq və avtomobil yollarının əsaslı təmir işlərinin aparılması üçün vəsait ayrılmışdır. Sumqayıt son illər müasir layihələr əsasında yenidən qurulur və regionun gözəl turizm məkanlarından birinə çevrilir. Vaxtilə Sumqayıtda xəyal kimi görünən layihələr bü gün ölkə başçısının həyata keçirdiyi uğurlu iqtisadi siyasət nəticəsində reallaşır. Eyni zamanda, ölkə başçısının şəhərimizə işgüzar səfərləri də olmuşdur. Möhtərəm Prezident aprel ayında “Karbamid” zavodunun tikintisində işlərin gedişi ilə tanış olmuş, avqust ayında Binəqədi-Novxanı-Corat yolunun açılışında iştirak etmişdir. Prezident Administrasiyasının məsul işçisi Vəfadar Bağırov son 14 il ərzində regionların sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlərdən, Azərbaycanın daxili və xarici siyasətdə əldə etdiyi uğurlardan danışıb. Natiq qeyd edib ki, son illərdə ölkəmizin hər yerində olduğu kimi, Sumqayıt şəhəri də yeni inkişaf mərhələsini yaşayır. Regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirən dövlət başçısının hərtərəfli qayğısı sayəsində şəhərdə əsaslı və kompleks yenidənqurma işləri görülüb. Daha sonra məruzə ətrafında geniş fikir mübadiləsi aparılıb, çıxışlar dinlənilib. Çıxışlarda 2017-ci ildə görülən işlər təhlil edilib, uğurlarla yanaşı, problemlər də sadalanıb, onların həlli ilə bağlı təkliflər irəli sürülüb.

Sonda yığıncaq iştirakçıları adından Prezident İlham Əliyevə müraciət qəbul olunub.

# Dini radikalizm, narkomaniya və erkən nigah mövzusunda tədbir keçirildi

Ağcabədi rayonunun Taxta Körpü qəsəbəsində rayonun Şamkənd kənd uşaq musiqi məktəbində Laçın Rayon İcra Hakimiyyətinin və Rayon Polis Şöbəsinin birgə təşkilatçılığı ilə dini radikalizm, narkomaniya və erkən nigahın doğurduğu fəsadlar mövzusunda tədbir keçirilmişdir. Qəsəbə ərazisində fəaliyyət göstərən rayonun Taxta Körpü qəsəbə tam orta məktəbinin müəlimlərinin və yuxarı sinif şagirdlərinin iştirak etdiyi tədbiri giriş sözü ilə açan Rayon Polis Şöbəsinin rəisi Adil Əsədov Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlət təhlükəsizliyi siyasətinin bu gün də məhz ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirmişdir. Natiq eyni zamanda bildirmişdir ki, dövlətimizin inkişaını istəməyən xarici qüvvələr tərəfindən ölkədə gənclər arasında radikal dini cərəyanların yayılması hallarına cəhd olunur və dövlətimiz tərəfindən belə işlərin qarşısı istənilən halda alınır. Lakin təəssüflər olsun ki, təhsildən kənarda qalan gənclərimizdən bəziləri belə təbliğatın təsiri altına düşür və nəticədə başqa torpaqlar uğrunda mahiyyəti bilinməyən savaşların qurbanına çevrilirlər. Dövlətimizin bütün ümumtəhsil müəssisələrində yüksək səviyyədə təhsil almaq üçün yaratdığı şəraitdən danışan natiq, təhsildən kənarda qalmağın gənclər arasında acı nəticələrə-narkomaniya və erkən nigah kimi problemlərə də səbəb olduğunu bildirmişdir. Narkomaniya və erkən nigahın doğurduğu fəsadlardan danışan Rayon Polis Şöbəsinin rəisi Adil Əsədov narkotiklərin insan orqanizminə, sağlamlığa vurduğu zərərlərdən, ümumilikdə cəmiyyətdə törətdiyi sosial bəlalardan danışaraq, məktəbliləri, gəncləri və bütün tədbir iştirakçılarını narkomaniyaya qarşı mübarizədə fəal olmağa çağırmış, məktəblilərə öz tövsiyyələrini vermiş, yaxşı təhsil almağı arzulamışdır.



Diskusiya şəraitində keçən tədbirdə məktəbliləri maraqlandıran suallara cavab verilmiş və tədbirin sonunda narkomaniyanın acı nəticələrini özündə əks etdirən videoçarx nümayiş olunmuşdur.

# Yaponiya hökumətinin dəstəyi ilə Tərtərdə məktəb binası təmir ediləcək

Yaponiya hökumətinin “Ot kökləri və insan təhlükəsizliyi qrant yardımı” proqramı çərçivəsində Tərtər rayonunun Qaradağlı kənd tam orta məktəbinin binası təmir ediləcək. Fevralın 8-də Tərtər rayon Gənclər Mərkəzində “Tərtər rayonunun Qaradağlı kəndində orta məktəbin təmiri” layihəsi üzrə qrant müqaviləsinin imzalanması mərasimi keçirilib.



Mərasimdə çıxış edən Yaponiyanın Azərbaycandakı səfiri Teruyuki Katori ölkəsinin Azərbaycanda reallaşdırdığı layihələr barədə məlumat verib. Bildirib ki, “Ot kökləri və insan təhlükəsizliyi qrant yardımı” proqramı çərçivəsində indiyədək Azərbaycanın bölgələrində səhiyyə, sosial müdafiə, yoxsulluğun azaldılması, gəlirlərin yüksəldilməsi, infrastrukturla bağlı ümumi dəyəri 19 milyon 132 min 243 ABŞ dolları olan 224 layihə üzrə qrant müqaviləsi imzalanıb. Yaponiya hökuməti indiyədək Tərtər rayonunda 2 layihə həyata keçirib və bu, artıq 3-cü layihədir. Layihənin əsas məqsədi Tərtər rayonunun Qaradağlı kəndində orta məktəbin bir hissəsini təmir etməklə, kənddə təhsilin keyfiyyətini yaxşılaşdırmaqdır. Layihənin ümumi məbləği 90 min 909 ABŞ dollarıdır.

Tədbirdə çıxış edən Tərtər Rayon İcra Hakimiyyəti başçısının müavini Abbas Cavadov və ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Elvin Umudov rayon haqqında məlumat verib, həyata keçirilən layihələrə görə Yaponiya hökumətinə minnətdarlıqlarını bildiriblər.

Sonra səfir Teruyuki Katori və “Üçüncü Sektor” İctimai Birliyinin sədri Tamaşa Quliyeva layihə üzrə qrant müqaviləsini imzalayıblar.

# Samux rayon Əhmədbəyli kənd tam orta məktəbdə "Dəyirmi masa" keçirilib

Samux rayon Əhmədbəyli kənd tam orta məktəbdə rayon ümumi təhsil məktəblərində çalışan bir sıra müəllimlərin iştirakı ilə Samux Rayon Təhsil Şöbəsinin metodistləri tərəfindən “Dəyirmi masa” keçrilib.

Tədbirin keçirilməsində məqsəd qabaqcıl pedaqoji təcrübə nümunələrinin təbliği sahəsində maarifləndirmə işlərinin gücləndirilməsi olub.



İlk olaraq Əhmədbəyli kənd orta məktəbin direktoru Etibar Abbasova “Dəyirmi masa”nı açıq elan edib və rəhbərlik etdiyi məktəbdə “Təhsildə keyfiyyət ili” ilə bağlı görülən tədbirlər haqqında qısa məlumat verib.

Daha sonra Samux Rayon Təhsil Şöbəsinin metodisti Rəna Əsgərova çıxış edərək “Dəyirmi masa”nın gündəliyində duran mələlır haqqında məlumat verib. Həmçinin “Təlim-tərbiyə prosesinin yeni fənn proqramlarının (kurikulum) tələbləri əsasında qurulması” movzusunda Lək kənd tam orta məktəbin müəllimi Könülün Cavadova və “Təhsilin keyfiyyətinin idarə olunmasında yeni qiymətləndirmə mexanizmlərinin yaradılması” mövzusunda Yuxarı Ağasıbəyli kənd tam orta məktəbin müəllimi Umani Əfqanənin məruzələri dinlənilib. Qeyd edilən mövzular ətrafında “Dəyirmi masa”nın iştirakçıları tərəfindən ətraflı fikir mübadiləsi aparılıb.

410:1.QXD 11.02.2018 17:29 Page 4



## Kürd deputatın mandatı ləğv edildi

Şırnak vilayətindən Türkiyə parlamentinə deputat seçilən HDP-çi Fərhad Encünün mandatı yekun



məhkəmə qərarı səbəbindən ləğv edilib. Axar.az xəbər verir ki, bu barədə TBMM-də keçirilən səsvermədə məlumat verilib. Sabiq deputat terror qruplaşmasının təbliğatını aparmaqda təqsirli bilinirdi və o, ötən ilin iyunun 9-da 4 il 7 ay müddətinə azadlıqdan məhrum edilmişdi. ***Axar.az***

## Türkiyədəki HDP partiyasında yeni isim

Türkiyədəki kürdyönümlü Xalqların Demorkatik Partiyası (HDP) sədrinin adı açıqlanıb.



Teleqraf.com xarici mediaya istinadla xəbər verir ki, qərara əsasən, partiyanın sabiq rəhbəri Səlahəddin Dəmirdaşı onun iqtisadi məsələlər üzrə müavini Sezai Təməlli əvəz edəcək.

Beləliklə, HDP konfransına 3 gün qalmış Təməlli partiya sədri seçilib. ***Teleqraf.com***

## Suriya BMT-yə müraciət edib

Suriya Xarici İşlər Nazirliyi Birləşmiş Millətlər Təşkilatının baş katibinə və Təhlükəsizlik Şurasının sədrinə ayrı-ayrılıqda ünvanladığı məktublarda sionist rejimin Dəməşqin ətraf ərazilərinə qarşı hava hücumlarına etiraz edib. Sionist rejim dünən səhər çağı paytaxt Dəməşqin şimal qərbində yerləşən Cəmriya bölgəsində Suriyanın




elmi tədqiqat mərkəzini raketlə hədəfə alıb.

Mehr xəbər agentliyinin verdiyi məlumata görə, Suriya XİN-i bu iki məktubda bildirib ki, sionist rejimin təcavüzləri, bu rejimin silahlı terrorçulara dəstək siyasəti və təhlükəli düşmənçilik hərəkətləri istiqamətində baş tutaraq, Suriya böhranının uzaldılması, terrorçuların dağıdılmış əhval-ruhiyyəsini qaldırmaq məqsədi güdür.

Məktublarda deyilir ki, sionist rejimin terrorçularla daima ahəngdar hərəkətini nəzərə alaraq artıq bu qeyri-qanuni rejimin beynəlxalq sülh və stabilliyə qarşı təhdid olduğu, İŞİD və Cəbhətün-nüsrədən daha təhlükəli olduğu faktına şübhə qalmır. Suriya XİN-i sionist rejimə bu kimi təcavüzkar hərəkətlərinin nəticələri barədə xəbərdarlıq edərək Təhlükəsizlik Şurasından bu təcavüzləri pisləməsi və bu rejimin cəzalandırılması üçün təcili tədbirlər görməsi istənilir. ***azeri.sahartv.ir***

# Kərkük nefti uğrunda yenidən savaş başladı

İraq ordusu İran sərhədi yaxınlığındakı bölgəyə nəzarət etmək üçün hərbi əməliyyata başlayıb. Sputnik Türkiyə xəbər verir ki, İraq ordusundan verilən rəsmi açıqlamaya görə, həmin bölgədən Kərkükdəki xam neftin İrana ötürülməsi üçün istifadə ediləcək.



İraq ordusu İraq neftinin nəql ediləcəyi İranla sərhəddəki bölgəyə nəzarəti təmin etmək üçün hərbi əməliyyata başlandığını elan edib. Ordu dağlıq bölgədə iki silahlı şəbəkənin aktiv fəaliyyət göstərməsindən narahat olduğunu bildirib.

Rəsmi Bağdad ötən ilin dekabrında Kərkükdəki xam neftin yük maşınları ilə İranın Kirmanşah bölgəsindəki neft emalı müəssisələrinə daşınacağını bəyan etmişdi. İraqla İran arasında ötən ilin 10 dekabrında əldə olunan razılığa görə, gündəlik neft ixracı 30.000 barel, gələcəkdə isə 60.000 barel olacaq.

İraqın şimalındakı Kürd Muxtariyyətinə bağlı olmayan Kərkükdəki neft və təbii qaz yataqları bir müddət əvvəl Peşmərgənin (İraq Kürdüstanındakı hərbi kürd birləşmələri) nəzarətində idi. Ancaq 2017-ci ilin oktyabrında İraq qüvvələrinin keçirdiyi əməliyyat nəticəsində Şimal Neft Şirkətinə aid neft bölgələrinə nəzarət yenidən Bağdadın əlinə keçib.

Neftin yük maşınları ilə daşınmasına hələ ötən həftə başlanmalı idi. Ancaq İraqın neft sahəsi üzrə rəsmiləri gecikmənin texniki səbəblərdən baş verdiyi barədə məlumat paylaşmışdı. ***sputnik.az***

# İran Türkiyənin Suriyadakı əməliyyatlarının dərinləşməsindən niyə narahat olmağa başlayıb...

İran Xarici İşlər Nazirliyinin sözçüsü Türkiyənin Suriyadakı əməliyyatını yenidən nəzərdən keçirməli olduğunu bildirib. “Hazırda Türkiyənin Suriyada həyata keçirdiyi əməliyyat əsla uyğun deyil və bu prosesin davam etməsi terrorun yenidən regiona qayıtmasına yol aça bilər”. Bunu həftəlik mətbuat konfransı zamanı Türkiyənin Suriyada keçirdiyi əməliyyata toxunan İran Xarici İşlər Nazirliyinin sözçüsü Bəhram Qasimi deyib. Kürdlərin Suriyada yenidən hərəkətə keçdiyinə dair bəzi məlumatlar aldıqlarını açıqlayan Xarici İşlər Nazirliyinin sözçüsü Türkiyəni əməliyyatı dayandırmağa çağırıb: “Türkiyə Suriyada apardığı əməliyyatı yenidən nəzərdən keçirib Astana prosesinə geri dönüş etməlidir”.

İran Türkiyənin Afrindəki əməliyyatlarından niyə belə narahatdır?

Ekspert Elşən Həsənov qəzetimizə açıqlamasında bildirdi ki, İranın özü də kürd İranda yaşayan kürdlzrin hədəfində olan ölkədir: “Bilirsiniz ki, kürdlər İranın, Türkiyənin, İraqın və Suriyanın tərkibində kompakt şəkildə



yaşayırlar. Belə olduğu təqdirdə, Türkiyənin, İraqın və Suriyanın yaşadığı problem İranda da təkrarlana bilər. Kürdlərlə İranın münasibətlərində düşmənçilik olsa da, onların arasında danışıqlar da gedir. İran rəsmən bəyan etdi ki, Ərbillə, yəni İraq Kürdüstanı ilə Bağdad arasında vasitəçilik edə bilər. Əlbəttə, belə olduqda Türkiyənin kürdlərlə müharibə aparması, əlbəttə, İranın maraqlarına uyğun deyil. Çünki İrana ağır gəlir ki, Türkiyə Suriyanın daxilində hərbi iştirakını artırır. İranın fikrincə, Suriyanın daxilində yalnız Rusiya və özünün iştirakı ola bilər. Kürdlər dörd dövlətin hesabına ölkə yaratmaq istəyirlər. İran da bu siyahıdadır. Lakin İranı narahat edən məsələ Türkiyənin bu əməliyyatlarla Şərqdə və Suriyada daha da güclənə bilməsidir. Əlbəttə, bu da Bəşər Əsəd siyasəti ilə sıx münasibətdə olan İranın mövqeyinə uyğun deyil. Ancaq bu gərginliyin Türkiyə ilə İran arasında müharibəyə səbəb olma ehtimalı çox aşağıdır. Çünki Türkiyə NATO dövlətidir. NATO nizamnaməsinə görə, dövlətlərdən biri müharibəyə başladığı təqdirdə digərlərinin də onun yanında olma öhdəliyi var. Düzdür, regionda çox mürəkkəb vəziyyət yaranıb. Türkiyənin atdığı addımlar onu gözləyəcək faciədən xilas edə bilər. Suriya-Türkiyə sərhədində otuz minlik terrorçuların iştirakı ilə qoşun yaradılması ideyası olmasaydı, təbii ki, Afrin əməliyyatı da olmayacaqdı. Afrin əməliyyatının başlanmasının bütün məsuliyyəti Türkiyənin deyil, PYD və PKK-nı silahlandıran və onları maliyyələşdirən qüvvələrin üzərindədir”. ***baki-xeber.com***

# Türkiyə ordusunun hücumlarında yüzlərlə suriyalı həlak olub və yaralanıb

Suriya rəsmi informasiya agentliyi bildirib: Türkiyənin Suriyanın şimalında kürd sakinli bölgələrə hücumlarında 500 suriyalı həlak olub və ya yaralanıb. SANA-nın məlumatına görə, Türkiyə ordusunun Suriyanın şimalında kürdsakinli bölgələrə hücumunun ilk günündən bəri 142 nəfər ölüb, 358 nəfər yaralanıb.

Məlumata görə, Türkiyənin Afrin bölgəsinə hücumunda həlak olanların hamısı sivillər olub.

Bu mənbə əlavə edib: Türkiyə ordusunun Afrinin ətraf bölgələrinə hücumlarında da Qırmızı Aypara Cəmiyyətinin bir mərkəzi minaatanın mərmisinə tuş gəlib. Nəticədə bu mərkəzə çoxlu xəsarətlər dəyib. Türkiyə 20 yanvardan ABŞ-ın Türkiyənin cənub sərhədləri yaxınlığında 30 min kürd qüvvələrindən ibarət xüsusi qüvvələrinə çalışmasına reaksiya olaraq bu bölgələrə irimiqyaslı hücumlara başlayıb. ***azeri.sahartv.ir***

# Əl-İbadi: Kürdlərin tələblərinə hörmətlə yanaşırıq

İraq baş naziri bəzi şəxslərin İraq Kürdüstanı ilə Bağdad arasında böhranın həll olunmamasını istədiyini bildirərək kürdlərin tələblərinə hörmətlə yanaşdığını deyib.

Mehr İnformasiya Agentliyinin məlumatına görə, İraq baş naziri Heydər əl-İbadi əl-Youm əl-Sabe ilə müsahibədə kürdlərin bəzi problemini tarixi adlandırıb və əlavə edib: İqtidara gələn bütün hökumətlər bu problemlə qarşılaşmışdır.

Əl-İbadi həmçinin deyib: Etnos məsələsi, neftlə əlaqədar böhran, Kürdüstan muxtariyyətində işçilərin maaşlarının ödənilməməsi problemi vardır. Biz bu problemlərin həllinə çalışırıq.

Əl-İbadi bildirib: Hökumət Kürdüstan muxtariyyətində şəffaflığın olmamasına etiraz edib və məsələlərin idarə olunmasının formasına qarşıdır. Çünki bu məsələ partiya şəklində həyata keçirilir və İraq parlamenti və hökuməti siyasi bölgüyə əsasən son illər ərzində önəmli məsulliyyətləri yerinə yetirmişdir. İraq baş naziri Kürdüstan muxtariyyətinin yeri idarə rəhbəri Neçirvan Barzani ilə Davosdakı son görüşü haqda da deyib: Bu



görüşdə bir yol xəritəsini əldə etdik və düzgün şəkildə icra olunacağına ümid edirəm. ***azeri.sahartv.ir***

410:1.QXD 11.02.2018 17:29 Page 5



# Belə qardaşlıqmı olur, Türkiyə?!

## Azərbaycan Türkiyənin əleyhinə heç bir yanlışlığa imkan verməyib



**Tofiq Abbas**

Son günlər qardaş Türkiyə vətəndaşlarının erməni işğalı altında olan Azərbaycan ərazilərinə qanunsuz səfər edib, Bakının etirazlarına məhəl qoymadan, Dağlıq Qarabağda ermənilərin arzu və istəklərini əks etdirən bəyanatlar verməkdən çəkinməyən, orada mətbuat konfransı keçirib, Dağlıq Qarabağı "Artsax" adlandıran, hətta utanıb-çəkinmədən, həyasızcasına qondarma "erməni soyqırımı"nın Ankara tərəfindən rəsmən tanınmasının "vacib" olduğunu səsləndirən Türkiyə vətəndaşlarının xəyanətkarlığına susan Türkiyə iqtidarını başa düşmək çox çətindir.

Bu həyasız insanlar beynəlxalq hüququn prinsiplərini və normalarını kobud şəkildə pozmaları Azərbaycan Konstitusiyasına görə ağır cinayət sayılırlar, ən əsası isə, iki qardaş ölkənin - Azərbaycanla Türkiyə dövlətləri arasındakı yüksək dostluq və qardaşlıq münasibətlərinə ləkə sala n, qəbul edilməsi mümkün olmayan iyrənc hərəkətlərə yol veriblər.

Ən xoşagəlməz hal odur ki, Qarabağa səfər edən Türkiyə vətəndaşları Ufuk Uras, Səid Çətinoğlu, Əli Bayramoğlu və Erol Qatırçıoğlu heç nədən və heç kimdən çəkinmədən, hal-hazırda Türkiyənin televiziyalarına, qəzet və saytlarına qanunsuz səfərləri və səfər təəssüratları haqqında geniş müsahibələr verirlər, hətta televiziyalarda açıq şəkildə Qarabağ ermənilərinin qonaqpərvərliyindən, hazırkı yaxşı vəziyyətlərindən həvəslə söz açırlar.

Türkiyə vətəndaşlarının qanunsuz səfərdən geri döndükdən sonar ölkə mediasına "Artsax" barədə belə həvəslə və rahatlıqla danışmaları ilk növbədə, Türkiyə iqtidarının məsələyə loyal münasibət bəsləməsinin nəticəsidir. Hakim dairələr bu adamların Qarabağda ermənilərin xeyirinə etdikləri qanunsuz hərəkətlərin Azərbaycanla Türkiyə qardaşlığına böyük zərbə olduğunu nədənsə, ciddiyə almırlar, iki ölkə arasındakı əlaqələrin önəmini vurğulayan Bakının narahatçılığına biganəlik nümayiş etdirirlər. ""Qərb Ermənilərinin Milli Konqresinin Milli Şurası"nın təsisçisi Araqat Ahonyanın təşəbbüsü ilə Xankəndidə qarabağlı separatçılarla Türkiyədən gələn siyasətçilər və mədəniyyət xadimlərinin görüşü olub. Görüşdən sonra mətbuat konfrası keçirilib". Erməni mediasında yayılan xəbərdə belə deyilir. Səfəri Ermənistandakı "Veradarts" ("Qayıdış") fondu təşkil edib.

İşğal altında olan, separatçı rejimin idarə etdiyi Xankəndidəki mətbuat konfransında Türkiyə Yaşıllar və Gələcək Partiyasının (Yeşiller ve Sol Gelecek Partisi) yetkilisi, "Ankara Düşüncə Platforması" qeyri-hökumət təşkilatının rəhbəri, sabiq millət vəkili Ufuk Urasın başçılıq etdiyi, Türkiyədən Xankəndinə gələn nümayəndə heyəti də olub. Türkiyədən Ermənistana yollanan, oradan da Dağlıq Qarabağa keçən nümayəndə heyətinə isə U. Uras, yazıçı Əli Bayramoğlu, yazıçı və teleaparıcı Erol Katırçıoğlu, yazıçı Səid Çətinoğlu daxildilər.

"Xankəndidə bizi çox mehriban qarşıladılar. Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasını istəyirik"- deyən U. Uras qondarma "erməni soyqırımı"nın da Türkiyə tərəfindən rəsmən tanınmasını arzuladığını söyləyib. Dağlıq Qarabağa yollandığı üçün Azərbaycan XİN-in "qara siyahı"sına düşməkdən çəkinib-çəkinməməsi barədə erməni jurnalistin sualını cavablayan U. Uras belə deyib: "Bizdə bir məsəl var: "İslanmışın yağışdan qorxusu olmaz". Xankəndiyə səfərimizin hansı siyasi sonluqlarının olacağını bilmirəm. Sadəcə, demək istəyirəm ki, rəsmi Bakının mövqeləri ilə bağlı etirazlar mövcuddur və bunu da Bakının diqqətinə çatdırmaq istəyirik. Biz sülh arzulayırıq, Xankəndiyə də buna görə gəldik". U. Urasın dediyinə görə, arvadı Zeynep Uras İstanbulda "Ermənilərdən üzr istəyirik!"- sloqanlı aksiya keçirdiyi üçün işdən qovulub. Yazıçı və siyasi fəal Səid Çətinoğlu isə bildirib ki: "Mən ermənilərə, Pont yunanlarına və assuriyalara qarşı illər boyu soyqırım tətbiq edildiyi yerdən gəlmişəm. Soyqırım problematikası üzrə mütəxəssisəm. Belə nəticəyə gəlmişəm ki, Dağlıq Qarabağ münaqişəsi və soyqırım arasında oxşarlıqlar, əlaqələr var".

S. Çətinoğlunun fikrincə, bir zamanlar Osmanlı Türkiyəsinin müttəfiqi olan Almaniya və Avstriya qondarma "erməni soyqırımı"nı tanıdığından Türkiyə də bunu etməlidir. "Düşünürəm ki, Türkiyə-Ermənistan sərhədi qeyd-şərtsiz açılmalıdır. Çünki Türkiyədə cəmiyyətin əksər hissəsi bunu istəyir", - S.Çətinoğlu belə deyib. Diqqət yetirin - Türkiyə vətəndaşları olan bir qrup yazar və jurnalist beynəlxalq hüquq normalarını pozaraq, Azərbaycanın işğal olunmuş torpaqlarına qanunsuz səfər edir, separatçı rejimin rəhbərliyi ilə görüşür, Xocalı soyqırımının baş cəlladı Serj Sarkisyanla bir araya gəlir və ölkələrinə qayıtdıqdan sonra isə ölkə mediasında erməni qonaqpərvərliyi haqqında ağızdolusu danışmağa başlayırlar. Bu hərəkətlə onlar açıq-aşkar ermənilərin təbliğatını aparırlar. Ən acınacaqlısı isə budur ki, bütün bunları Türkiyə hökuməti sanki görmür. Xarici İşlər Nazirliyinin sözçüsü, Ədliyyə Nazirliyinin mətbuat müşaviri, yaxud səfir səviyyəsində verilmiş yumşaq bir bəyanatla kifayətlənir.

İlk növbədə anlamaq lazımdır ki, həmin şəxslər erməni işğalında olan Azərbaycan ərazisinə qanunsuz səfər ediblər. Onlar başqa bir yad dövlətin yox, məhz qardaş Türkiyənin vətəndaşları olduqlarından, məsələnin sırf siyasi və qanuni aspektləri ilə yanaşı, həm də bir mənəvi yükü də var. Açığı, bu olaya Ankaranın belə biganə münasibəti bizi ermənipərəst yazarların xəyanətindən daha çox incidir. Türkiyə hökumətinin bu fakta hüquqi qiymət verməməsi, müvafiq addımları atmaması, gələcəkdə də belə halların təkrarlanmasına şərait yaratmırmı?! Əgər məsələyə qarşı hökumət sərt tədbirlər görsəydi, təbbi olaraq, Türkiyə ictimaiyyətində də həmin xəyanətkar şəxslərə qarşı ciddi ictimai qınaq formalaşardı.

Bizi qardaş Türkiyədən incik salan başqa bir hadisənin də oktyabrın 11-də baş verməsi lap gözlənilməz oldu! Avropa Şurası Parlament Assambleyasında Azərbaycanla bağlı aparılan müzakirələrdə Türkiyə Böyük Millət Məclisinin CHP partiyasından olan deputatları - Dəniz Baykalın, Gülsün Bilgəhanın, İlhan Kəsicinin, Azərbaycanın öhdəliklərinə dair həmməruzəçilər Stefan Şennax və Sezar Florin Predanın hazırladıqları "Azərbaycanda demokratik təsisatların vəziyyəti" adlı tənqidi hesabat üzrə Qətnamənin lehinə səs verdilər.

Azərbaycana qarşı qərəzli münasibətin, eyni zamanda erməni lobbisinin və anti-türk, anti-islam dairələrin sistematik fəaliyyətinin əyani təzahürü olan məlum qətnamənin Türkiyəli millət vəkilləri tərəfindən dəstəklənməsi, heç bir izahı olmayan bir hadisə kimi Azərbaycan xalqının yaddaşına yazıldı. Təbii, Azərbaycan-Türkiyə münasibətləri hər zaman iqtidarla-müxalifət münasibətərindən, onların arasındakı siyasi çəkişmələrdən daha üstün olub. Lakin Ankara unutmamalıdır ki, beynəlxalq, regional və milli məsələlərdə Azərbaycan həmişə Türkiyəyə birmənalı, çox böyük dəstək verib. Bunun aydın görünən nümunələrini yaxın keçmişə nəzər salanda da görmək olur. Bütün bunların müqabilində eyni həssaslığı Türkiyədən gözləmək Azərbaycan xalqının və ictimaiyyətinin mənəvi haqqıdır. Burada isə əsas gözləntilər, məhz Türkiyə hökumətindəndir. Məhz Türkiyə rəhbərliyi iki ölkə arasında olan qardaşlıq bağlarını zədələyə biləcək, münasibətlərə kölgə salacaq halların qarşısını vaxtında və sərt şəkildə almalıdır ki, gələcəkdə kimsə bu cür hərəkət etməyə cəsarət etməsiin. Türkiyə vətəndaşı olan insanların bu cür cinayətkar səfərini normal hal kimi başa düşmək çox çətindir. Çünki bu səfəri edənlər bizim üçün dost, qardaş olan Türkiyənin vətəndaşlarıdır.

Qondarma rejimə səfər, əslində Azərbaycan dövlətinin işğal edilmiş torpaqlarımıza qeyri-qanuni səfər edilməməsi ilə bağlı tələblərinə məhəl qoyulmaması deməkdir. Azərbaycan Respublikasının Baş Prokurorluğu həmin şəxslərlə bağlı cinayət işi açıb və Türkiyənin müvafiq qurumlarına bu haqda məlumat verilib. Lakin təəssüf ki, indiyə qədər Türkiyənin müvafiq qurumları tərəfindən bu istiqamətdə heç bir adekvat addım atılmayıb. Bu isə həmin insanları antiazərbaycan və antitürkiyə təbliğatlarını daha da genişləndirməyə imkan yaradır. Onların mütəmadi olaraq Türkiyə kanallarında çıxış etmələri, müsahibələrinə geniş yer ayrılması, bu qənaətə gəlməyə əsas verir ki, Türkiyənin özündə bu cür insanların səfərlərini təşkil edən, Azərbaycan-Türkiyə dostluq, qardaşlıq münasibətlərinə zərbə vurmaq istəyən müəyyən qüvvələr var. Həmin qüvvələrin cəzalandırılmasına ehtiyac var, amma təəssüf ki, biz bunun şahidi olmuruq. Azərbaycan ictimaiyyəti baş vermiş bu hadisədən son dərəcə narahatdır.

Azərbaycan ictimaiyyəti gözləyir ki, bu məsələlərlə bağlı Türkiyə tədbirlər görsün. Çünki o qüvvələr bilirlər ki, belə addımların atılması, Azərbaycanda ciddi reaksiyaya səbəb ola və bu da nəticədə Azərbaycan-Türkiyə münasibətlərinə xələl gətirə bilər. Onlar da, məhz bunu istəyirlər. Azərbaycan Prezidenti İlham Əliyev, Azərbaycan xalqı hər zaman, ən çətin anlarda Türkiyənin yanında olub. Dövlətimizin başçısı Azərbaycanla yanaşı, Türkiyənin də maraqlarını qoruyub, dost və qardaş ölkənin əleyhinə səsləndirilən iddialara tutarlı cavablar verib. Azərbaycanın rəsmi şəxsləri, tanınmış ictimai-siyasi xadimləri, vətəndaş cəmiyyəti institutlarının nümayəndələri heç vaxt Azərbaycanın və Türkiyənin maraqları arasında fərq qoymayıblar. Türkiyədə 15 iyul dövlət çevrilişinə cəhd zamanı Azərbaycan Prezidenti İlham Əliyev dərhal və qətiyyətlə öz mövqeyini ifadə etdi, Türkiyə dövlətinin, Türkiyə xalqının yanında olduğunu bildirdi, Türkiyənin legitim hakimiyyətini - Ərdoğan hakimiyyətini müdafiə etdiyini bildirdi...

İndi isə Azərbaycan üçün çox ciddi məsələ - Türkiyə vətəndaşlarının Qarabağa qanunsuz səfəri ilə bağlı Türkiyə hökumətinin susması, məsələyə yalnız Azərbaycandakı səfirlik və XİN səviyyəsində yumşaq bəyanatlar verməklə, problemin həll olunduğunu düşünməsi çox böyük yanlışdır. Azərbaycan dövləti və xalqı bu hadisə ilə bağlı Türkiyə hökumətindən daha ciddi tədbirlərin görülməsini gözləyir. *paralel.az*

# Qubad Talibani kürd qrupları birliyə dəvət etdi

İraq Kürdüstanı muxtariyyətinin yerli idarəsi rəhbərinin müavini kürd qruplardan kürdlərin mənafeyini qorumaq üçün birliyi qorumalarını istəyib.



İSNA-nın Sümeriyyə Newsa istinadla verdiyi məlumata görə, Kürdüstan muxtariyyəti baş nazirinin müavini və İraqın mərhum prezidenti Calal Talibaninin oğlu Qubad Talibani parlament və vilayət şuraları seçkilərində iştirak etmək üçün koalisiyanın təşkil olunmasında kürd partiyaların məğlubiyyətə uğraması ardınca, bir bəyanatda kürd qurpları mənafelərini qorumaq üçün birləşməyə çağırıb.

Talibani bu bəyanatda xüsusilə Kürdüstan muxtariyyətindən kənar kürd bölgələrdə "kürd xalqının ali mənafeyi"nin qorunmasını bildirib və deyib: Həlledici məsələlərdə birlik və həmrəylik zəruridir.

İraq parlament seçkiləri 12 may 2018 tarixində keçiriləcək. *azeri.sahartv.ir*

# Kürdlər Afrində etiraz aksiyası keçirib

Suriyanın şimalında yerləşən Afrin şəhərindəki kürdlər etiraz aksiyası keçirib. FaktXəbər-in "SANA"ya istinadən verdiyi




məlumata görə, minlərlə kürd Türkiyənin "Zeytun budağı" əməliyyatını dayandırmağa çağırıblar. Nümayişçilər Afrində keçirilən əməliyyatda sivil vətəndaşların öldürüldüyünü iddia ediblər. Onlar bu günə kimi 500 vətəndaşın qurbana çevrildiyini bildiriblər.

Qeyd edək ki, aksiyada narazı kütlə terrorbaşı Abdullah Öcalanın da şəkillərini qaldırıblar. *faktxeber.com*

# Suriya kürdləri: Türkiyə Afrində qadağan olunmuş silahlardan istifadə edir

Suriya Kürdləri Demokratik Birliyi PYD qüvvələri bildiriblər: Türkiyə Afrin əməliyyatında qadağan olunmuş silahlardan istifadə edir.



Suriya Kürdləri Demokratik Birliyi PYD qüvvələrinin ictimai əlaqələr şöbəsinin məsulu Ridor Xəlil deyib: Türkiyə Afrinə hücumda qadağan edilmiş Napalm və kasset bombalardan istifadə edir. Ridor Xəlil əlavə edib: Afrində Türkiyənin qadağan olunmuş silahlardan istifadə etməsi haqda sənədləri toplamaq üçün səylər davam edəcək. Türkiyə Suriyanın şimalında Afrin şəhərində Zeytun Budağı əməliyyatını 20 yanvarda başlayıb. Rəsmi Ankara PKK, PYD, YPG və İŞİD terror qruplaşmalarının məhvini bu əməliyyatın məqsədi adlandırır. Suriya hökuməti Türkiyənin Afrin şəhərində hərbi əməliyyatını Suriyanın ərazi bütövlüyünün pozulması adlandırıb və onu qınayıb. *azeri.sahartv.ir*

410:1.QXD 11.02.2018 17:29 Page 6



# Kürdlər və Kürdüstan

## Kürdlərin coğrafiyası və yerləşməsi

Əvvəli ötən sayımızda

1877-78-ci illər müharibəsi qurtarmağa macal tapmamış, türk nüfuzunun laxlaması nəticəsində yeni Həkari, Bahdinan2 və Botan kürdləri üsyana başladılar.

1) Assuriyada maraqlı qazıntıları ilə məşhur olan yerli sakin. Bax. Turaev. İstorii Drev. Vostoka, 1913, 1, 37.

2) Başqa sözlə Amadiya

Üsyanın başında yenə həmin ailənin nümayəndələri, yəni Bədirxanın oğlanları dururdu. Onlardan biri Türk Ali Qərargahının polkovniki idi. Onların məqsədi keçmiş müstəqilliyi qaytarmaq idi. Soranda yenə türk dəstəsi qırıldı, ancaq sonra üsynın başçıları tutuldu və üsyan söndü.

1880-ci il hərəkatı bir qədər xüsusi xarakterə malikdir. Üsyanı qaldıran 1878-ci il müharibəsində türklərə əməli kömək göstərmiş ruhani hakimiyyətinin nümayəndəsi, Kürdüstanda çox sayılan Şeyx Übeydulla idi. Məqsəd yenə də kürdlərin müstəqilliyi məsələsi idi. Lakin onun həyata keçirilməsinə İran ərazisində başlanmalı idi. Kürdlər böyük qüvvə ilə Urmiyanı mühasirə etdilər, Urmiya gölünü şərqdən ötüb keçdilər, Binabı tutdular və Təbrizə doğru istiqamət götürdülər. Burada əsl çaxnaşma baş verdi, küçələrdə xüsusi darvaza və alaqapılar1 tikildi. Bizim konsulluq arxivi köçürməyə hazırlaşdı. Ancaq Urmiyanın azadlığı üçün makulular hərəkətə gəldilər, bizim sərhəddə general Alxazovun komandası altında xüsusi Naxçıvan dəstəsi bir yerə toplandı. Farslar Marağa altında müqavimət göstərdilər. Nəhayət, kürdləri geri oturtdular. Müəyyən bir ideya ilə başlanan bu hərəkat adi bir soyğunçuluğa çevrildi. Mən olduğum yerlərdə eşidirdim ki, nəhayət, kürdlər özləri yenə qarətlərini daşıma vasitələri tapmadıqları üçün geri çəkildilər. O zaman «Qolos» qəzetinin xüsusi müxbiri kimi Azərbaycana gedən Q.Arakelyan bu günlərdə2 yazırdı ki, Ubeydullanın hücumundan ermənilər əziyyət çəkməyiblər, ancaq külli miqdarda şiələr, farslar məhv olub və qarət olunublar. İran ciddi etiraz etdi. Şeyx Ubeydulla Konstantinopola göndərildi.

1) Başqa sözlə, özünəməxsus barrikada.

2) İzv. Kav. Otd. İ.R.Q., XVII, 1904, «Kurdı v Persii»

Yenidən Qafqaz yolu ilə Azərbaycana qaçdı, yenə tutuldu, Məkkəyə sürgün olundu. Oradan isə Türkiyə inqilabından sonra, ancaq onun kiçik oğlu, indi türk senatoru1 olan Şeyx Əbdül Qadir qayıtdı.

Keçən əsrin kədərli 90-cı illərində türklər erməni milli hərəkatının qarşısını almaq üçün kürdlərdən kobud bir silah kimi istifadə etmişdilər ki, bu onların yeni tarixində xüsusilə qeyd olunmalıdır. Bəzi inqilabçıların terrorçuluq hərəkatına qarşı ermənilərin yaxın qonşusu, bu vaxtacan patriarxal ucqarlarda2, elə indi də onlarla dözüləsi bir şəraitdə yaşayan kürdlərin yaxından iştirak etdiyi dəhşətli qırğın başlandı. Əməli siyasətə maraqlı baxışın ifadəsi Şeyx Übeydullaya aid edilir. Silahdaşları ona xristian qırğını düzəltməyi təkid edəndə o, sanki deyib «Biz kürdlər türklərə ancaq xristianlara müqabil kimi lazımıq. Xristianlar olmasa, türklər bizi təqib etməyə başlayacaqlar».

1891-ci ildə Anadolu vilayətlərində islahatlar aparmaq üzrə Ali Komissar olmuş məşhur Şakir paşa kürdlərdən kazaklar kimi qeyri-nizami dəstələr yaratmaq fikrinə düşdü. Şakir paşa hərbi mükəlləfiyyət çəkməmiş kürd xalqını tədricən türklərlə məlum münasibətə cəlb etmək və onları intizam və qayda çərçivəsinə salmaq məqsədini güdürdü. Həqiqətən, 1892-ci ildə Konstantinopol və Bağdadda köçəri ərəb və kürdlərdə Türkiyəyə bağlılığın başlanğıcını həyata keçirmək üçün xüsusi «əşirət məktəbləri»nin əsası qoyuldu.

1) Kürdlərin yeni tarixi haqqında rqs hərbi yazıçıları Kartsev, xüsusilə, P.İ.Averyanov tərəfindən çoxlu maraqlı materiallar toplanmışdı («Rusiya ilə müharibədə kürdlər… XIX əsrdə»). Öz şəxsi müşahidələrimlə tamamlanmış faktların çoxunu da mən onlardan götürmüşəm. Übeydullanın üsyanı haqqında polkovnik Kamsarakanın işi və ingilis Göy kitabı mövcuddur. Correspondence respektinq the Kurdish invasion of Persia, Turkey, 1881, №5»




2) Rəsmi şəxslər bu münasibətlə, məs: Vandakı Myukyus və b. Nahiyələrin təsərrüfat müdiri kürd Mutiulla ağanın xidmətləri barədə şahidlik etmişlər.

Ancaq bu məktəblər az yaşadı. Şakir paşa tərəfindən düşünülmüş islahatın həyata keçirilməsi əslində tez və xüsusi xərc tələb etmədən yeni silahlı qüvvələr yaratmaq kimi xalis hərbi plan Zəki paşaya tapşırıldı. Belə təşkilatların-«Həmidiyyə dəstələri»nin nə dərəcədə uğurlu olmasını mühakimə etmək bizlik deyil. Türklər özləri axır ki, qeyri-nizami Həmidiyyənin nizami yüngül süvariyə («xəfif süvari») çevirməyin zərurətini dərk etdilər.

Sultan Əbdülhəmid kürdlərdən albanlar kimi öz məqsədləri üçün istifadə edərək, onların mülki qaydalara itaət etməmələrinin hər cür təzahürünə güzəştlə baxırdı. Ancaq Konstitusiya qəbulundandan sonra bu mənada kürdlərin vəziyyəti xeyli pisləşdi. Məlum olduğu kimi, Gənc Türklər hərəkatının tezliklə ümumi «Osmanlı vətəni» yaratmaq adı altında türkləşmə siyasəti yeridən çox kobud türk şovinizminə çevrildi. Diqqət qəbilə başçılarının irsi hakimiyyətini zəiflətməyə yönəlmiş və onlarla yanaşı, sonra isə bilavasitə onların yerinə yerli dilləri, şəraiti -

1) «Həmidiyyə» haqqında xeyli hərbi ədəbiyyat vardır. Məs, bax. F.F.Qrəznovğ Kurdı i Kudskaya Konniüa, vğ İzv. III t. Kav.Voen. Okr. 1907, 20. bilməyən, inzibati təcrübəsi olmayan, ancaq bunun əvəzində gurultulu nitqlərlə müşayət olunan milli bayramlar düzəltmək, donanmaya «könüllülər» yığmaq və s ilə məşğul olan komitə məmurları gəlməyə başladı. Bütün bunlar kürdlərin xoşuna gəlməyə bilərdi.

Təhsilli kürdlərin həmişə fəxr etdikləri adlar xatırlanmasa, tarixi oçerk natamam olar. İlk məşhur kürd, bütün dünyada Sələhəddin kimi tanınmış, Misir, Suriya və Mesopotamiyada 1169-cu ildən XIII əsrin axırına qədər yaşamış Əyyubilər sülaləsinin banisi, xristian Yerusəlim çarlığını fəth etmiş, ingilis I Riçard, fransız Filip Avqustun uğurlu rəqibi Sələhəddin Əyyubi idi. İranda 1750-ci ildən 1779-cu ilə qədər əsasını Kərim xan Zəndin qoyduğu sülalə hökmdarlıq etmiş və onun şəxsi iradəsi öz humanistliyi ilə fərqlənmişdir.

Ancaq bu iki tarixi şəxsiyyət əsasən öz xalqından kənarda fəaliyyət göstərmişdir1. Sırf yerli, müstəqil sülalələrə gəlincə beləleri aşağıdakılardan ibarətdir.

